# Silahlı Qüvvələrimizin dəqiq əməliyyatları ilə xunta rejimi ləğv edildi

*19 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı hərbi qulluqçularımız böyük igidlik və qəhrəmanlıq göstərdilər. Antiterror tədbirləri ordumuzun daha bir Zəfər yürüşü idi, bu tədbirlər nəticəsində Qarabağda erməni separatizminə birdəfəlik son qoyuldu. Erməni vandallarının "rəhbərləri" əli qandallı Bakıya gətirilərək ədalət məhkəməsinə təhvil verildilər.*



İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun tarixi qələbəsi ilə başa çatdı. Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları 10 noyabr tarixli üçtərəfli Bəyanat qalib Azərbaycanın şərtləri əsasında formalaşdı. İşğalçı Ermənistan həmin Bəyanatla üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq sonrakı mərhələdə Ağdam, Kəlbəcər və Laçını döyüşsüz təslim etdi. Beləliklə, qüdrətli Azərbaycan tarixi ədaləti və ərazi bütövlüyünü hərbi-siyasi yolla bərpa etməyə nail oldu.

Lakin üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində canlı qüvvəsini və texnikasını tarixi ərazimizdən çıxarmadı, əksinə, bura əlavə silahlı qüvvə yerləşdirdi. Rəsmi Bakı bütün bunlara qarşı haqlı narazılığını ifadə edərək dəfələrlə rəsmi İrəvana, onların xaricdəki havadarlarına mesaj verərək bildirdi ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazilərindəki faydalı qazıntı yataqlarının qeyri-qanuni şəkildə istismar olunması və təbii sərvətlərin Ermənistana daşınması Azərbaycan ictimaiyyətinin haqlı narazılığına səbəb olurdu.



Kapitulyasiya aktından sonra Azərbaycanın Qarabağ bölgəsində hələ də 10 mindən artıq Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri mövcud idi. Halbuki üçtərəfli Bəyanata əsasən Qarabağ ərazisindəki erməni yaraqlıları 3 il əvvəl tərk-silah edilməli idilər. Azərbaycan işğala məruz qalan tərəf olsa da Qarabağda baş verən gərginliyin aradan qaldırılması azərbaycanlılarla ermənilərin birgəyaşayışını təmin edəcək reinteqrasiya prosesinin normal davam etməsi və məsələnin ikitərəfli danışıqlar yolu ilə həllini tapması üçün 3 il müddətində əlindən gələni etdi.

Təəssüf ki, Azərbaycanın humanist çağırışlarının əvəzində erməni silahlı qüvvələri sayını artırmaqla, yeni silahlar alıb təxribatlar törətməklə məşğul oldular. Hətta vəziyyət o yerə çatmışdır ki, Qarabağda separatçılar müstəqillikdən dəm vurur, özlərinin oyuncaq "prezident"lərini seçir, qondarma "parlament"ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər.

2023-cü il aprelin 23-də Azərbaycan Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə Azərbaycanın suveren ərazisində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında Laçın nəzarət-buraxılış məntəqəsinin qurulduğunu bildirmişdir.

Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Qarabağda ordumuzun təminat yollarının minalanması nəticəsində iki mülki şəxsin və dörd polis əməkdaşının şəhid olması səbir kasamızı daşırdı. Nəhayət, 2023-cü il sentyabrın 19-u səhər saatlarında erməni şovinistlərinin pozuculuq fəaliyyətinin qarşısının alınması, eyni zamanda separatçı-terrorçu xuntanın birdəfəlik ləğvi üçün Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin qanunsuz hərbi birləşmələrinə qarşı məhdud və lokal xarakterli legitim antiterror tədbirləri həyata keçirildi. Rəşadətli Azərbaycan Ordusu yüksək həssaslıq və peşəkarlıq nümayiş etdirərək qanunsuz erməni silahlı birləşmələrinin ön xəttində və dərinliklərdə olan mövqelərini, uzunmüddətli atəş nöqtələrini, döyüş vasitələrini, yalnız legitim hərbi obyektləri və infrastrukturu hədəfə alaraq nöqtə atışı zərbələrlə neytrallaşdırdı. Ordumuz mülki şəxslərə dəyə biləcək zərərlərdən maksimum yayınmaq üçün mülki əhali və infrastruktur obyektlərin yaxınlığında məqsədli şəkildə yerləşdirilmiş legitim hərbi obyektlərə zərbələr endirməkdən çəkindi.

Beləliklə, sentyabrın 20-də 24 saatdan da az müddətdə yekunlaşan "ildırımsürətli", lokal xarakterli antiterror tədbirləri real nəticəsini verdi. Bütün istiqamətlər üzrə hərbi uğurlar əldə edildi. Ordumuz qəhrəmanlıq, şücaət və peşəkarlıq nümayiş etdirərək haylara, Paşinyanın "məğlubedilməz" komandasına ağır zərbələr endirdi. Ermənilər bir daha gördülər ki, "miatsum" xəstəliyi onları uçuruma aparır. Ermənistan silahlı qüvvələrinin qanunsuz hərbi birləşmələri al bayraq qaldıraraq təslim oldular.

Antiterror tədbirləri zamanı ordumuzun arsenalında olan yüksək dəqiqlikli silahlardan düşmənin legitim hədəflərinə ağır zərbələr endirildi. Dəqiq zərbələrlə erməni vandallarının 1761 hədəfi sıradan çıxarıldı, bölmələrimiz bütün istiqamətlərdə uğurlar əldə etdi və qısa zaman ərzində düşmənin 90-dan çox döyüş mövqeləri ələ keçirildi. 15-18 minlik hərbi qruplaşma təslim olmağa məcbur edildi.



Separatizmin kökü kəsildi. Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni silahlı dəstələri tərk-silah edilərək ərazilərimizdən çıxarıldı, erməni keşişlərinin sərsəm duaları havada qaldı. Ölkəmizin suverenliyi tam təmin edilməklə, bütün ölkə ərazisində Azərbaycan Respublikasının Konstitusiya quruluşu bərpa olundu. Cəmi bir gün ərzində 406 kvadratkilometr ərazi yad ünsürlərdən təmizlənərək tam nəzarətimizə keçdi. Əməliyyat zamanı düşmənin yeraltı və yerüstü sığınacaqları külə dönüb sovruldu.

Bir sözlə, lokal xarakterli antiterror tədbirləri qüdrətli ordumuzun hərbi gücünün, yüksək döyüş hazırlığının və səriştəsinin göstəricisi oldu. Hər günü bir şərəfli tarix olan 44 günlük Vətən müharibəsi zamanı ordumuzun nümayiş etdirdiyi müasir döyüş üslubu dünya hərb tarixində yeni səhifə açmışdısa, bu cür qısamüddətli, uğurlu antiterror tədbirləri ilə bu qəhrəmanlıq salnaməsi yenidən yazıldı. İyirmi dörd saatdan da az müddətə sığan və uğurla yekunlaşan anti-terror tədbirləri unikal hərbi əməliyyat kimi dünya səviyyəsində böyük heyranlıqla qarşılandı. Bir sözlə, qalib sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqı üçün həlli mümkünsüz görünən vəzifəni reallaşdırdı, ideal liderlik nümunəsi göstərdi.

**Qədir ASLAN,**
**"Respublika".**